# Azərbaycan Avropa İttifaqı üçün etibarlı tərəfdaşdır



## Aİ regionda münasibətlərin normallaşması üçün zəmin yaradılmasına xüsusi töhfə verir

**Dekabrın 15-də Belçika Krallığının paytaxtı Brüsseldə keçirilən dünya ictimaiyyətinin böyük maraqla izlədiyi Avropa İttifaqının Şərq Tərəfdaşlığının VI Sammitində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuranın Prezidenti Şarl Mişelin Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasına verdiyi töhfəni vurğulayıb. Həmçinin, Şarl Mişelin təşəbbüsü ilə aparılan bu danışıqların çox praktiki olduğunu və təfsilatlı xarakter daşıdığını, burada Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması, sərhədlərin delimitasiyası və demarkasiyası, nəqliyyat infrastrukturunun, xüsusilə də dəmir yolu xəttinin çəkilməsi kimi məsələlərin müzakirə olunduğunu, nəticə etibarilə səmərəli və praqmatik keçdiyini diqqətə çatdırıb.**

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan ilə keçirilmiş üçtərəfli görüşün nəticəsinə dair bəyanat yayıb. Bəyanatda bir sıra mühüm məsələlər yer alıb. Bəyanatda sərhədlərin demarkasiyası və delimitasiyası məsələsində Aİ tərəfindən məşvərətçi statusda dəstək verilə biləcəyi qeyd edilib. Avropa İttifaqı Cənubi Qafqaz regionunda iqtisadi əməkdaşlığın inkişafını dəstəkləyib. Eyni zamanda, birgə iqtisadi əməkdaşlıq platformasının yaradılması təklifi irəli sürülüb. Şarl Mişel regionda kommunikasiya infrastrukturunun yaradılmasına, ölkələr arasında əlaqəni təmin edən xətlərin açılmasına və inkişaf etdirilməsinə Aİ-nin dəstəyini ifadə edib. Qurumun hətta iqtisadi və investisiya resursları vasitəsilə bu layihələri dəstəkləyəcəyi də vurğulanıb.

Qeyd etmək lazımdır ki, Avropa İttifaqının Prezidenti Şarl Mişellə Azərbaycanın dövlət başçısı İlham Əliyev arasında indiyə qədər olan görüşlərdə də yüksək anlaşma mühiti, bölgənin reallıqları, ona balanslı, yetərincə prinsipial və xüsusilə də Azərbaycanın ərazi bütövlüyünə münasibətdə dəqiq ifadələrin şahidi olmuşuq. Eyni zamanda, həm əvvəlki görüşlərdə, həm də indi verilən bəyanatda bu prinsiplər, əsas elementlər regiondakı təhlükəsizliyin və birgəyaşayışın əsas fundamenti, təməl daşları kimi yenə də qorunub saxlanılır.

**(davamı 2-ci səhifədə)**

# Azərbaycan Avropa İttifaqı üçün etibarlı tərəfdaşdır

(əvvəli 1-ci səhifədə)

Azərbaycanın qətiyyətlə həllinə çalışdığı mühüm məsələ isə bölgədə kommunikasiyaların açılmasıdır.

Zəngəzur dəhlizinin açılması, ilk növbədə, Naxçıvanla Azərbaycanın əsas hissəsini bilavasitə birləşdirən nəqliyyat dəhlizi olacaq. Eyni zamanda, bu dəhlizin açılması Azərbaycanla qardaş Türkiyənin quru və dəmir yolu xətti ilə birbaşa birləşməsini həyata keçirəcəkdir. Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini qoyan Azərbaycan və Türkiyə prezidentləri Zəngəzur dəhlizi barədə müsbət fikirlər səsləndiriblər. Digər bir tərəfdən kommunikasiyaların açılması bölgədə yeni əməkdaşlıq platformalarının yaradılmasına gətirib çıxaracaq ki, bu da regionda uzunmüddətli sülhün, əmin-amanlığın təmin olunmasında çox mühüm rol oynayacaq. Bu yol bir əsrdən artıq bir-birindən ayrılan ərazilərimizi birləşdirməklə yanaşı, həm də Avropa ilə Asiya arasında əsas tranzit xəttin yaranmasını təmin edəcək. Bu tranzit xəttinin Azərbaycandan keçməsi ölkəmizin həm region, həm də dünya səviyyəsində geopolitik mövqeyinə də töhfə olacaq.

Brüsseldə Avropa İttifaqının Şərq Tərəfdaşlığının VI Sammitində çıxışı zamanı Ermənistan baş naziri Nikol Paşinyanla görüşü dəyərləndirən Azərbaycan Prezidenti İlham Əliyev vurğulayıb ki, əvvəlki illərdə Ermənistan rəhbərliyi adətən beynəlxalq tədbirlər zamanı Azərbaycana qarşı əsassız, ittiham xarakterli çıxışlar edirdi. Bu dəfə isə belə bir halın baş vermədiyini müsbət qiymətləndirən Prezident İlham Əliyev, öz növbəsində, Ermənistana qarşı bilavasitə fikir səsləndirmədiyini qeyd edib. Dövlət başçısı deyib ki, bu, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması üçün münbit zəminin yarandığını göstərir. Bu amil isə Azərbaycanın regionda yaratdığı yeni reallıqların məntiqi nəticəsidir. Belə ki, yalnız Avropanın deyil, eyni zamanda dünyanın aparıcı siyasi və hərbi təşkilatlarının rəhbərləri Azərbaycanın Qarabağ müharibəsindəki qələbəsini və onun nəticələrini qəbul etdiklərini rəsmən bəyan edirlər. Ermənistana Moskvada və Soçidə olduğu kimi, Brüsseldə də imza atdığı Bəyanatla üzərinə götürdüyü öhdəliklərə əməl etməli olduğu açıq şəkildə bildirildi. Bizim üçün tarixi önəm daşıyan məqam həm də o oldu ki, Zəngəzur dəhlizi və onun tarixi reallıq və zərurət olması bir daha mötəbər Avropa kürsüsündən bütün dünyaya elan olundu. Qalib Azərbaycan Prezidenti İlham Əliyevin simasında özünün qələbəsini siyasi və diplomatik baxımdan dünya miqayasında bir daha təsdiq etmiş oldu.

## Aİ regionda münasibətlərin normallaşması üçün zəmin yaradılmasına xüsusi töhfə verir

Onu da qeyd etmək lazımdır ki, Brüsseldə Avropa İttifaqı Şurası Prezidentinin iştirakı ilə Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında üçtərəfli formatda keçirilən görüşdə tərəflər dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə planlaşdırılan danışıqların başlanması kontekstində yerlərdə gərginliyin azaldılması və əlverişli atmosferin yaradılması üçün əlavə ciddi addımların atılmalı olduğu barədə razılığa gəliblər. Sənədə əsasən, tərəflər arasında qarşılıqlılıq prinsipi əsasında dəmir yolu xətlərinin bərpasına dair işlərin davam etdirilməsi ilə bağlı razılıq əldə olunub. Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan 9 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanat çərçivəsində götürülmüş əsas öhdəliklərin yerinə yetiriləcəyini və noyabrın 26-da Soçidə əldə olunmuş razılaşmaların yerinə yetirilməli olduğunu təsdiqləyiblər. Sərhədlərin müəyyənləşməsi və kommunikasiya xətlərinin açılması Azərbaycanın maraqlarına uyğundur. Buna artıq Ermənistanın baş naziri Nikol Paşinyan da etiraz etmir. O son açıqlamasında Naxçıvanla Azərbaycanın materik hissəsini birləşdirən nəqliyyat yollarının açılmasının mümkünlüyünü bildirib. Bu, əslində Ermənistan üçün də faydalı bir layihədir. Rusiya prezidenti Vladimir Putin də Naxçıvana uzanan kommunikasiya xətlərinin açılması zərurətini "Valday"dakı müzakirələrdə səsləndirib. Əgər sərhədlərin müəyyənləşməsi məqsədilə danışıqlar başlayacaqsa və kommunikasiya xətləri açılacaqsa, növbəti addım iki dövlətin bir-birlərinin ərazi bütövlüklərini tanıyan sülh sazişini imzalaması olacaq.

"Biz sərhədləri açmaq istəyirik. Bu vaxta kimi Azərbaycanın, Ermənistanın və Rusiyanın Baş nazirlərinin müavinlərinin rəhbərlik etdiyi üçtərəfli işçi qrup çərçivəsində bir neçə dəfə danışıqlar baş tutub. Bu işçi qrupunun əsas məqsədi və vəzifəsi kommunikasiyaların açılmasıdır" bunu Brüsseldə İspaniyanın "El Pais" qəzetinə verdiyi müsahibəsində deyən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, danışıqların bir neçə mərhələsi nisbətən uğurlu olub: "İndi Azərbaycan və Ermənistan arasında dəmir yolu əlaqəsinin açılması ilə bağlı tam razılıq var və biz Ermənistan sərhədi istiqamətində azad edilmiş ərazilərdə sökülmüş dəmir yolu xəttini tikməyə başlamışıq. Eyni zamanda, əvvəlki aylarda Ermənistan avtomobil yolunun açılmasına etiraz edirdi, lakin indi biz onları bunun qaçılmaz olduğuna inandıra bilmişik və onlar da bununla razılaşır. Beləliklə, anlaşma var. İndi biz bu dəhlizlərin, Azərbaycandan keçib Ermənistana gedən və sonra Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına gedən Zəngəzur dəhlizinin hüquqi rejimini müzakirə edirik. Burada bizim hələ də açıq qalan müəyyən məsələlərimiz var. Lakin hesab edirəm ki, hər iki ölkə bunun baş verməli olduğunu qəbul edir və yeri gəlmişkən, keçən ay Soçidə Prezident Putinin təşəbbüsü ilə keçirilən üçtərəfli görüş zamanı biz kommunikasiyaların açılmasından açıq şəkildə bəhs edən bəyannaməni qəbul etdik. Beləliklə, bu, baş verəcək".

Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistan baş naziri Nikol Paşinyanın Brüsseldə keçirilən görüşünün nəticələri belə deməyə əsas verir ki, regionda ölkəmizin yaratdığı reallıqlar fonunda böyük dəyişikliklərinin şahidi olacağıq. Zəngəzur dəhlizinin reallaşması bölgəyə davamlı sülh, əmin-amanlıq, iqtisadi fəallıq gətirəcək.

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika.- 2021.- 17 dekabr.- S.1;2.